# AĞAYEV BƏYLƏR TAPDIQ OĞLU



3 fevral 1969-cu ildə Qubadlı rayonunun Qarağaclı kəndində doğulmuşdur. 1985-ci ildə qonşu Qa- racallı kənd orta məktəbini bitirmişdir. 1987-ci ildə hərbi xidmətə çağırılmışdır. O, hərbi xidmətini 1989-cu ildə Almaniya Demokratik Respublikasında başa çatdıraraq doğma kəndlərinə qayıtmışdır. 1990-cı ildə Azərbaycan Dövlət İnşaat Mühəndisləri Universitetinə daxil olmuşdur. 1992-ci ildə təhsilini yarımçıq qoyub könüllü olaraq ordu sıralarına yazılmışdır. Onun çox bacarıqlı olması ilk günlərdən diqqəti cəlb etmiş və bölmə komandiri təyin edilmişdir. Bəylər Ağayev Laçın rayonu uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. Səfiyan, Yuxarı və Aşağı Fərəcan, Mazutlu, Türklər, Suarası kəndlərində gedən qanlı döyüşlərdə düşmənin xeyli canlı qüvvəsinin və hərbi texnikasının məhv edilməsində xüsusi fəallıq göstərmişdir. 1992-ci il avqustun 6-da düşmən qüvvələri qəflətən Xanalılar kəndinə hücuma keçmişdir. Bəylər döyüş yoldaşları ilə birlikdə düşmən mühasirəsinə düşsə də, erməni yaraqlılarına güclü müqavimət göstərmişdir. Qeyri-bərabər döyüşdə o, qəhrəmanlıqla həlak olmuşdur. Qarağaclı kəndindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir (Hazırda işğal altındadır). Subay idi. Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı Fərmanı ilə Ağayev Bəylər Tapdıq oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Qubadlı rayon Qaracallı kənd orta məktəbi onun adını daşıyır ( hazırda erməni işğalı altındadır).